**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**TALEH FƏRMAN oğlu XƏLİLOV**

# XIX ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVANDA MAARİFÇİLİK İDEYALARININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

5804.01-Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Naxçıvan – 2017**

İş Naxçıvan Dövlət Universitetinin **"Pedaqogika və psixologiya"** kafedrasında yerinə yetirilmişdir.

**ELMİ RƏHBƏR**: Azərbaycan Respublikasının əməkdar müəllimi, pedaqogika üzrə elmlər doktoru, professor **Rüfət Lətif oğlu Hüseynzadə**

**RƏSMİ OPPONENTLƏR**: Pedaqogika üzrə elmlər doktoru, professor **Akif Nurağa oğlu Abbasov**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Qızıltac Tarverdi qızı Şahbazova**

**APARICI TƏŞKİLAT:** **Bakı Dövlət Universitetinin "Pedaqogika" kafedrası**

**Müdafiə** _____ __________ 2017-ci il tarixdə saat $10^{00}$-da Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD.02.121 Dissertasiya Şurasının əsasında yaradılmış B/FD.02.121 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**ÜNVAN:** AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, Əsas bina, Böyük akt zalı

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

**Avtoreferat** «______» _____________ 2017-ci ildə göndərilmişdir.

**B/FD. 02. 121 DİSSERTASİYA ŞURASININ ELMİ KATİBİ:** Filologiya üzrə fəlsəfə doktoru, dosent İ.Z.Cəfərov

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Maarifçilik nəinki Azərbaycan, həmçinin dünya pedaqoji fikir tarixində özünəməxsus yer tutur. Bilik və mədəniyyətin ötürülməsi, yayılması ilə əlaqədar fəaliyyət sahələrindən olan maarifçilik elmi tutumlu və sistemli bir fikri cərəyan kimi tarixən XVIII əsrdə meydana çıxsa da, maarifçilik ideyaları çox qədimlərdən mövcud olmuş və bəşər mədəniyyətinin inkişafında müstəsna rol oynamışdır. İngilis mütəfəkkiri C.Lokdan başlayaraq alman filosofu İ.Kanta qədər K.A.Helvetsi, D.Defo, C.Svift, D.Didro, J.J.Russo, Volter, Herder, Hegel, İ.H.Pestalossi, İ.F.Herbart, A.Disterveq, M.V.Lomonosov, F.İ.Yankoviç, V.Q.Belinski, A.İ.Gertsen, N.Q.Çernışevski, K.D.Uşinski, N.A.Dobrolyubov, L.N.Tolstoy kimi ümumdünya şöhrətli filosof və yazıçılar, çoxlu ziyalı təbəqəsi maarifçilik məfkurəsinin ideya və estetik prinsiplərini yaratmış görkəmli şəxsiyyətlərdən olmuşlar. Maarifçilik ideyaları Avropa ölkələrindən və Rusiyadan fərqli olaraq, Yaxın və Orta Şərqdə, o cümlədən Azərbaycanda XIX əsrin əvvəllərindən təşəkkül tapmışdır. Bu dövrdən etibarən Cənubi Qafqazın digər regionları kimi, Azərbaycanda da rus dilində təhsil verən yeni məktəblər açmaq zərurəti meydana gəlmişdi. Qeyd edək ki, 1827-ci ildə Tiflis hərbi qubernatoru Sipyagin tərəfindən bu məsələ ortaya atılmışdır. O, Cənubi Qafqazın bir sıra şəhərlərində olduğu kimi Azərbaycanın Nuxa (Şəki), Qazax, Şamaxı, Şuşa, Bakı, Quba, Naxçıvan və Ordubad şəhərlərində yeni tipli məktəblərin açılması fikrini irəli sürmüşdür. Bu dövrdə yerli əhali arasında müəllim işləmək üçün bilik və qabiliyyəti olan adamların çox az olması Naxçıvanda məktəb açılmasını ləngitmişdir. Əvvəlki dövrlə müqayisədə XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan pedaqoji fikir tarixinə müsbət xüsusiyyətləri ilə seçilən xüsusi bir dövr kimi daxil olmuşdur. Xalq maarifi, məktəb təhsili və elmi-ictimai fikir tarixində mühüm addımlar atılmışdır. Şimali Azərbaycanın Rusiyanın tərkibinə qatılmasından sonra ölkədə xalq maarifinin inkişafı yeni mərhələyə daxil olmuş, pedaqoji fikir tariximizdə yeni meyllər ortaya çıxmışdır. Həmin dövrdə dövlət məktəblərinin açılması istiqamətində atılan addımlar mühüm ictimai-siyasi və mədəni hadisə kimi tariximizə daxil olmuşdur. Əsrlər boyu fəaliyyət göstərmiş köhnə üsullu dini məktəblərin, mədrəsələrin ləğv edilməsi, yeni tipli tədris müəssisələrin yaranması, təhsilin ana dilində aparılması istiqamətində görülən işlərin nəticəsində Naxçıvanda maarifçilik ideyalarının təşəkkül və inkişaf dövrü başlanmışdır. Bu dövrdə yeni düşüncə tərzinə malik olan ziyalıların olması, onların maarifçilik istiqamətində

gördüyü işlər Naxçıvanın pedaqoji fikir tarixində yadda qalan izlər qoymuş, yeni məzmunlu mədrəsələrlə yanaşı, yeni tipli məktəblərin, yeni təlim metodlarının da əsası qoyulmuşdur.

XIX əsrin sonu XX əsrin əvvəllərində inkişaf etməkdə olan yeni mədəniyyətin xarakterik xüsusiyyətlərindən biri Naxçıvan bölgəsində maarifçi hərəkatın qüvvətlənməsi olmuşdur. Naxçıvanda başqa sahələrdə: sosial-iqtisadi, ictimai-siyasi və mədəni olduğu kimi, xalq maarifi sahəsində də ciddi inkişaf dövrü başlanmış, təhsilin əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənmişdir. Köhnə dini-sxolastik təhsilə nisbətən, dünyəvi təhsil tədricən xalq maarifi sahəsində üstünlük təşkil etmişdir. Bu zəmin əsasında Naxçıvanda da maarif və mədəniyyətin bir çox sahələrində ümumi tərəqqi dövrü başlanmış, görkəmli mədəniyyət xadimləri yetişmiş, ana dili məktəbləri açılmış və yeni üsullu dərsliklər yazılmışdır. Azərbaycan xalqının maariflənməsində bu dövrün əhəmiyyəti ilə bağlı xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: "Xalqımızın maariflənməsi, təhsillənməsi üçün o dövr çox əhəmiyyətli bir dövr olmuşdur. Biz bunu qiymətləndirməliyik, heç vaxt unutmamalıyıq. Biz tariximizə doğru, ədalətli qiymət verməliyik. Sözün əsl mənasında Azərbaycan məktəbi məhz iyirminci əsrdə yaranmışdır. Azərbaycan dilində, xalqımızın öz ana dilində uşaqlara, gənclərə təhsil verən və millətimizi təhsilləndirən məktəb yaranmışdır. Bizim bu gün malik olduğumuz iqtisadi və siyasi potensiala, təhsil potensialına görə o dövrdə yaranaraq inkişaf etmiş təhsil sisteminə borcluyuq"[1]. Azərbaycan xalqının bugünkü iqtisadi, mədəni və mənəvi potensialının formalaşmasında, yüksək intellektə malik bir millət kimi inkişaf etməsində zəngin ənənələrə malik təhsil sisteminin mühüm yer tutması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun məruzələrində hər zaman vurğulanmış və bu sahədə qarşıda duran vəzifələr müəyyən edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Azərbaycan təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri tarix boyu təhsildə daim varisliklə novatorluğun, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişlər"[2].

Ali Məclisin Sədri Vasif Talıbovun Sərancamına əsasən 1998-ci ildə Naxçıvanda ilk dünyəvi məktəbin yaradılmasının 160 illik yubileyinin

---

[1] Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, s. 9-10

[2] İlham Əliyev. İnkişaf-məqsədimizdir. Bakı: Azərnəşr, 2013, s. 31-32

qeyd olunması Naxçıvanın pedaqoji fikir tarixini, maarif və təhsili daha dərindən öyrənmək sahəsində dövlət tərəfindən göstərilən diqqət və qayğının ən bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: "Ədəbi-fəlsəfi fikir tarixinə, memarlıq sənətinə böyük dühalar bəxş etmiş, adı çəkilən sahələrdə intibaha səbəb olmuş şəxsiyyətlər yetirən məktəb ənənələrinin sistemli şəkildə öyrənilməsi məktəb tarixinin inkişafı baxımından fayda verə bilər"[3].

Azərbaycan məktəb və pedaqoji fikir tarixində özünəməxsus yer tutan, aktual məsələlərdən birini təşkil edən XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü və inkişafı məsələsinin tədqiqat obyekti seçilməsi də məhz bu zərurətdən irəli gəlib. Naxçıvanın təhsil, pedaqoji fikir tarixinin, maarifçilik hərəkatının obyektiv reallıqlar əsasında dərindən tədqiq olunması ilə bağlı Azərbaycan xalqının ümummmilli lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri Vasif Talıbovun tədqiqatçıların qarşısında qoyduqları vəzifələrin yerinə yetirilməsi sahəsində görülən işlərdəndir. Bütün bunlar Azərbaycanın qabaqcıl ziyalı dəstəsini təmsil edən maarifçilər regionda ictimai-mədəni mühitin inkişafına, xüsusən təhsilə həmişə diqqət yetirməyə və qayğı göstərməyə sövq etmişdir. XIX əsrin sonu XX əsrin əvvəlləri Naxçıvanda maarifin və təhsilin inkişafı daha çox demokratik ziyalıların adı ilə sıx bağlı olmuşdur. Belə ziyalılardan Məhəmməd Tağı Sidqinin, Cəlil Məmmədquluzadənin, Məhəmmədağa Şahtaxtlının, Eynəli bəy Sultanovun, Məmməd Səid Ordubadinin, Əliməmməd Xəlilovun, Əliqulu Qəmküsarın, Məmməd Qazıyevin, Mirzə Ələkbər Süleymanovun, Sadıq Xəlilovun, Məmmədqulu bəy Kəngərlinin, Əbülqasım Sultanovun, Mirzə Cəlil Şürbinin, Hüseyn Cavidin və başqalarının adlarını fəxrlə çəkə bilərik. Bu dövrdə Naxçıvan sakinlərinin maariflənməsində adları çəkilən mütəfəkkirlərin və ziyalıların böyük rolu olmuşdur. Bütün bunların nəticəsində bəhs olunan dövrdə Naxçıvanda maarifçi hərəkat yüksək səviyyəyə qalxmış, elm və təhsildə böyük uğurlar əldə edilmişdir. Naxçıvan maarifçiləri tək bir sinfin deyil, xalqın, bütün millətin adından, təhkimçiliyin, ictimai-hüquq sahələrində yaratdığı nə varsa hamısına qarşı mübarizə aparmış, mütləqiyyət qaydalarının ləğvini və cəmiyyət həyatını yaxşılaşdırmağa səy göstərmişlər. Belə bir şəraitdə ənənəvi təlimin formasında və təhsilin məzmununda yeniliyə doğru ilk addımlar atılmışdır.

---

[3] İntibahın 15 ili. Naxçıvan: Əcəmi, 2010, s. 11

Naxçıvanda maarifçilik hərəkatı, elm və təhsil sahəsi XX əsrin əvvəllərində daha da inkişaf etməyə başladı. Bu dövrdə Naxçıvanın qabaqcıl ictimai xadimlərinin, görkəmli mədəniyyət nümayəndələrinin, müəllim və pedaqoqlarının xalq kütlələrini maarifləndirmək, inkişaf etdirmək səyləri, məktəb, kitabxana və digər mədəni-maarif müəssisələri yaratmaq ideyaları, Azərbaycan dilində kitab, qəzet və jurnallar nəşr etmək təşəbbüsləri çar hökuməti orqanlarının inadlı müqavimətinə rast gəlirdi. Naxçıvanda maarifçi hərəkatın tarixi ilə bağlı ayrı-ayrı dövrlər və problemlər üzrə əsərlər yazılsa da, dissertasiyalar müdafiə edilsə də, problemin kompleks şəkildə hərtərəfli öyrənilməsi zəruriliyi hələ də öz aktuallığını saxlamaqdadır. Regionda maarifçi hərəkatın öyrənilməsi, onun verdiyi bəhrənin üzə çıxarılması, burada pedaqoji fikrin, xalq maarifin və məktəbin vəziyyətinin, onun mütərəqqi əsasda inkişafına təsir göstərən amillərin üzə çıxarılması xüsusi əhəmiyyət kəsb edir. Bu isə ölkə pedaqoji fikir tarixinin tamlığını, zənginləşməsini təmin edir, qazanılmış müsbət təcrübədən, mütərəqqi ənənələrdən bu gün də istifadə olunmasına imkan verir. Deməli, problemin tədqiqi həm tarixi, həm də müasir baxımdan aktualdır.

**Tədqiqatın obyekti** XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ictimai-pedaqoji fikrində maarifçi ideyaların meydana gəlməsi və inkişafı prosesidir.

**Tədqiqatın predmetini** XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkül mərhələlərini və istiqamətlərini öyrənmək təşkil edir.

**Tədqiqatın məqsədi** XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan bölgəsinin maarifpərvər ziyalılarının təhsillə bağlı görüşlərinin əsas istiqamətlərini və onların məktəb təhsili sahəsindəki fəaliyyətlərini (yeni üsullu məktəblərin yaradılması, təlimin ana dilində aparılması, qızların təhsilə cəlb edilməsi, milli müəllim kadrlarının hazırlanması, əlifba islahatı və s.) müəyyənləşdirmək, dövrün ictimai-mədəni inkişafı fonunda maarifçi hərəkatın məzmun xüsusiyyətlərini üzə çıxarmaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan bölgəsinin sosial-iqtisadi, ictimai-siyasi vəziyyəti, eləcə də bu dövrdə Naxçıvanda cərəyan edən maarifçilik hərəkatı dərindən öyrənilərsə və Naxçıvanın maarifçilik tarixi daim diqqət mərkəzində saxlanılarsa, bu istiqamətdə uğur qazanmaq olar.

**Tədqiqatın vəzifələri.**

-XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifin

inkişafını sürətləndirən mövcud ictimai-siyasi və sosial-iqtisadi vəziyyəti tədqiq etmək;

-tədqiq olunan dövrdə Naxçıvanda maarifin inkişafını şərtləndirən ictimai-siyasi, mədəni və pedaqoji şəraiti araşdırmaq;

-XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifin təşəkkülündə Qori və İrəvan Müəllimlər Seminariyaları məzunlarının fəaliyyətlərini təhlil etmək;

-Bu dövrdə Naxçıvanda fəaliyyət göstərən yeni üsullu məktəblərin tipini, quruluşunu, səciyyəvi xüsusiyyətlərini, təhsilin məzmununu, təlimin təşkili formalarını müqayisəli şəkildə tədqiqata cəlb etmək;

-XIX əsrin sonu XX əsrin əvvəllərində naxçıvanlı ziyalıların məktəb təhsili sahəsindəki fəaliyyətlərini dərindən tədqiq etmək;

-tədqiq olunan dövrdə Naxçıvanda müəllim hazırlığının problemlərini və qadın təhsilinin ümumi vəziyyətini üzə çıxarmaq;

**Tədqiqatın metodoloji əsası.** Tədqiqatın metodoloji əsasını keçmiş mədəni irsə münasibət haqqında mütəfəkkir pedaqoqların məşhur fikirləri, məktəb və pedaqogika elmi haqqında imzalanan qərarlar, pedaqoji fakt, hadisə və proseslərin obyektivlik və tarixilik prinsipi əsasında öyrənilməsi haqqında nəzəri müddəalar təşkil edir.

**Tədqiqatın metodu.** Tədqiqat zamanı tarixi-müqayisəli, arxiv sənədlərinin öyrənilməsi, elmi təhlil və nəzəri təhlil metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.**

-XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü və inkişafı daha dərindən, kompleks, monoqrafik şəkildə tədqiqata cəlb olunmuşdur;

-tədqiqat zamanı Naxçıvanda sosial-iqtisadi, ictimai-siyasi vəziyyət, maarifçilik ideyalarının təşəkkülü və inkişafı, spesfik xüsusiyyəti elmi faktlarla hərtərəfli şəkildə öyrənilmişdir;

-XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda ana dilində təhsilin, maarifin inkişafı, əhali arasında savadsızlığın aradan qaldırılması, əlifba islahatının aparılması və digər mühüm məsələlər elmi faktlarla qismən təhlil edilmişdir;

-XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda yeni məktəblərin açılmasında, müəllim kadrlarının hazırlanmasında Qori və İrəvan Müəllimlər Seminariyalar məzunlarının fəaliyyəti hərtərəfli şəkildə öyrənilmişdir;

-Tədqiqat zamanı XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarif və mədəniyyətin inkişafında misilsiz xidmətlər göstərmiş naxçıvanlı ziyalılar birdaha müəyyənləşdirilmiş, onların fəaliyyətlərinə dair yeni faktlar üzə çıxarılmış və ilk dəfə kompleks şəkildə öyrənilərək elmi dövriyəyə daxil edilmişdir;

-XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda ana dili və dünyəvi məktəblərin yaradılması, məktəblərdə dini elmlərlə yanaşı, dünyəvi elmlərin tədris olunması, təlimin ana dilində aparılması, milli məfkurəyə malik müəllim kadrların hazırlanması, qızların təhsilə cəlb olunması müəyyənləşdirilmişdir;

-Naxçıvan ziyalıları tərəfindən yazılmış ana dili dərslikləri, təlimin ana dilində aparılması, ana dilli dərsliklərinin hazırlanması, təhsilin məzmununun milliləşdirilməsi, yeni təlim metodlarının tətbiqi aşkara çıxarılmışdır;

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti aşağıdakı iki aspektdə özünü göstərir:

-Bu tədqiqat Naxçıvanda məktəb və pedaqoji fikir tariximizi xeyli zənginləşdirir. Çünki, tədqiqat zamanı toplanılmış çoxsaylı arxiv sənədləri, dövrü mətbuat və elmi ədəbiyyat, irəli sürülmüş təkliflər və əldə edilmiş nəticələr elmi əhəmiyyət daşıyır;

-Müasir dövrdə Naxçıvanda yeni tipli məktəb quruculuğu və fəaliyyəti işində o zamanın mütərəqqi ənənələrindən istifadə edilməsində xüsusi əhəmiyyət kəsb edir. Ona görə ki, tədqiqat işi yazılarkən təkcə problemin öyrənilməsi və faktların araşdırılması ilə kifayətlənməmiş, həmçinin toplanılan materialların təhlil edilməsinə, onlar arasında əlaqələrin və ziddiyyətlərin üzə çıxarılmasına səy göstərilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertasiya işi “Azərbaycanda məktəb və pedaqoji fikir tarixi”, “Təhsil tarixi” və “Pedaqogika tarixi” dərsliklərinin yazılmasında, Naxçıvanda maarif və mədəniyyətin inkişafı ilə bağlı tədqiqat əsərlərinin işlənməsində, ali məktəblərdə pedaqoji təhsil alan bakalavrlar üçün mühazirə və seminar məşğələlərinin hazırlanmasında, tələbələrin buraxılış işlərinin və “Pedaqogika nəzəriyyəsi və tarixi” ixtisası üzrə təhsil alan magistrantların dissertasiya işlərinin hazırlanmasında istifadə oluna bilər.

**Mövzunun öyrənilmə səviyyəsi.** XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü və inkişafı ilə bağlı aparılan araşdırmamız zamanı məlum olur ki, Naxçıvanda maarifçi hərəkatına aid ədəbi-elmi tədqiqatlar ötən əsrin 50-ci illərindən

başlanmışdır. Bu dövrdə bir neçə fundamental tədqiqat əsəri hazırlanmışdır. Fikrimizə nümunə olaraq Əziz Şərifin "Molla Nəsrəddin necə yarandı", "Keçmiş günlərdən", İ.Ə.Həbibbəylinin "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri", "Ədəbi yüksəliş", L.T.Hüseynzadənin "Əliqulu Qəmküsar (həyat və yaradıcılığı)", Ə.N.Qədimovun "Ordubad ədəbi mühiti", "Məhəmməd Tağı Sidqinin həyat və yaradıcılığı", İ.Q.Maqsudovun "Eynəli bəy Sultanovun həyat və yaradıcılığı", Z.Ə.Şahverdiyevin "Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində", H.R.Cəfərovun "Naxçıvanda təhsil: inkişaf yolu və imkanları", İ.F.Kazımovun "Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər)", Ə.K.Qəhrəmanovun Naxçıvan teatrı: İntibah yollarında (1883-1920)", K.A.Kərimovun "Bəhruz Kəngərli", G.İ.Kərimovanın "XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan mədəniyyət xadimlərinin teatr-estetik görüşləri" və digər tədqiqat əsərlərini göstərmək olar. Yuxarıda adlarını çəkdiyimiz tədqiqat əsərlərində XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü və inkişafı pedaqoji istiqamətdə, kompleks şəkildə öyrənilməsə də, problemin bəzi məsələləri haqqında müəyyən məlumatlar verilmişdir. Bu istiqamətdə bir çox tədqiqatçılar araşdırmalar apararaq müəyyən pedoqoji fikirlər irəli sürsə də, XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü və inkişafı kompleks şəkildə öyrənilməmiş, ayrıca tədqiqat obyekti olmamışdır. Tədqiqatçılardan İ.A.Mollayevin "Naxçıvan MSSR-də xalq maarifinin inkişafı, "Naxçıvanda xalq maarifinin inkişafı tarixindən", "Məhəmməd Tağı Sidqinin pedaqoji görüşləri adlı əsərlərində problemlə bağlı müəyyən məlumatlar verilmişdir. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü və inkişafı ilə bağlı sırf Naxçıvanla yanaşı ümumazərbaycan məktəb və pedaqoji fikri ilə bağlı tədqiqatlarda da müəyyən məlumatlar vardır. Bu cür tədqiqatları da Naxçıvanda maarifçi hərəkatının genişlənməsi və ideyaların yaranması istiqamətində əhəmiyyətli mənbələrdən hesab etmək olar. Belə tədqiqat əsərləri problemin öyrənilməsi işində metodoloji mahiyyətə və məzmuna malik olması ilə də əhəmiyyət kəsb edir. Görkəmli tədqiqatçı alimlərdən H.M.Əhmədovun "XIX əsr Azərbaycan məktəbi" və Ə.M.Tağıyevin "Azərbaycanda məktəb tarixi" adlı monoqrafiyalarında məktəb və pedaqoji fikrimizin inkişafı tarixinin öyrənilməsi əsas məqsəd olsa da, yeri gəldikcə qabaqcıl mütərəqqi görüşlərə malik ziyalıların maarifçi fəaliyyəti və ideyaları da müəyyən səviyyədə əks olunmuşdur. Beləliklə, problemin öyrənilmə səviyyəsinin təhlilindən göründüyü kimi onun bir sıra aspektləri

müxtəlif müəlliflər tərəfindən işıqlandırılaraq XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və mədəni həyatında Naxçıvan bölgəsinin xüsusi əhəmiyyət daşıdığı qeyd edilmişdir. Lakin, indiyədək pedaqogika tarixində tədqiq etdiyimiz problem, mövzu indiyədək ayrıca tədqiqat sahəsi kimi kompleks şəkildə, monoqrafik formada öyrənilməmişdir. Buna görə də ilk dəfə mövzu tərəfimizdən tədqiqat obyekti kimi seçilmiş, araşdırılmasına səy göstərilmişdir.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Tədqiqat işinin yazılmasında arxiv materiallarından, dövrü mətbuatdan, pedaqoqların nəzəri fikirləri və konsepsiyalarından, elmi tədqiqat əsərlərindən, internet resurslarından istifadə edilmişdir. Daha çox son dövrlərdə nəşr olunmuş kitab və monoqrafiyalara, arxiv materiallarına üstünlük verilmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat xronoloji cəhətdən XIX əsrin 70-ci illərindən XX əsrin 20-ci illərinə qədər olan dövrü əhatə edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

-XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifin təşəkkülündə ictimai-siyasi vəziyyət və sosial-iqtisadi inkişaf mühüm yer tutmuşdur;

-tədqiq olunan dövrdə Naxçıvanda maarifçilik mühitinin formalaşmasında naxçıvanlı maarif xadimləri mühüm işlər görmüşlər;

-XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü və inkişafında mədəniyyətin ayrı-ayrı sahələri də (ədəbiyyat, teatr, rəssamlıq, memarlıq və s.) özünəməxsus yer tutmuşdur;

-tədqiq olunan dövrdə Naxçıvanda maarifçilik ideyalarının inkişafında İrəvan və Qori Müəllimlər Seminariyalarında təhsil almış naxçıvanlı maarif xadimlərinin xidmətləri böyük olmuşdur;

-XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda ana dili və dünyəvi məktəblər yaradılmış, ana dili təlim dili seçilmişdir;

-tədqiq olunan dövrdə Naxçıvanda qızların təhsili məsələsi və müəllim hazırlığı maarifçilik ideyalarının əsas istiqamətlərindən birini təşkil etmişdir;

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın aprobasiyası bir neçə yolla həyata keçirilmişdir:

1. Tədqiqat işinin mövzusu 13 yanvar 2012-ci il (protokol № 4) tarixdə Naxçıvan Dövlət Universitetinin Elmi Şurasında və Azərbaycan Təhsil Problemlər İnistitutunun nəzdində fəaliyyət göstərən Pedaqogika üzrə Problem şurasının 30 may 2012-ci il (protokol № 4) tarixli iclasında təsdiq edilmişdir. İş Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və

psixologiya" kafedrasında yerinə yetirilmişdir.

2. Tədqiqatın nəticələri ilə bağlı Naxçıvan Dövlət Universitetində elmi tədqiqat işlərinin yekunlarına həsr olunmuş ənənəvi konfranslarda (2012-2017), 7 respublika və 11 beynəlxalq elmi-praktik konfransda məruzə və çıxışlar edilmiş, tezislər dərc olunmuşdur.

3. Naxçıvan Dövlət Universitetində pedaqogika nəzəriyyəsi və tarixindən, Azərbaycanda məktəb və pedaqoji fikir tarixindən mühazirə və seminar məşğələləri aparmaqla XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan ziyalılarının maarifçilik ideyaları təbliğ olunmuşdur.

4. Tədqiqatın ayrı-ayrı hissələri, problemin əhatə etdiyi materiallar və tədqiqatın nəticələri çap edilərək aprobasiyadan keçirilmişdir. Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi elmi nəşrlərdə tədqiqat işi ilə bağlı 14 məqalə çap edilmşdir. Məqalələrdən səkkizi yerli, altısı isə xarici elmi yurnallarda çap olunmuşdur.

**Tədqiqatın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş müxtəlif dillərdəki elmi-nəzəri və bədii ədəbiyyatın siyahısından ibarətdir. İşə istifadə olunmuş ixtisarlar da əlavə olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri göstərilmiş, işin elmi yenilikləri, nəzəri-praktik əhəmiyyəti, metodu və metodologiyası, tədqiqatın fərziyyəsi, mənbəşünaslıq bazası, xronoloji çərçivəsi, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın aprobasiyası və quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiya işinin birinci fəsli **"XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü"** adlanır. Bu fəsil beş yarımfəsli əhatə edir. Birinci yarımfəsil **"XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda sosial-iqtisadi və ictimai-siyasi mühit"** adlanır. Burada XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanın sosial-iqtisadi və ictimai-siyasi mühiti öyrənilmişdir. Müəyyən edilmişdir ki, bu dövrdə Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi həyatında baş vermiş dəyişikliklər nəticəsində ölkənin bütün regionlarında olduğu kimi Naxçıvan da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Sosial-iqtisadi və ictimai-siyasi həyatdakı dəyişikliklər bütün sahələrdə olduğu kimi mədəni-maarifə də təsir göstərmiş və maarifçilik hərəkatının genişlənməsinə səbəb

olmuşdur. XIX əsrin sonundan başlayaraq çar hakimiyyəti Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvanda da həyata keçirilən bir sıra siyasi, hüquqi, iqtisadi islahatlar regionun iqtisadi və mədəni həyatında canlanma yaratmışdı. XX əsrin əvvəllərində Şimali Azərbaycanda olduğu kimi, Naxçıvan da siyasi partiyalar, yerli təşkilatlar və ilk siyasi milli təşkilatlar yaranmağa başlamışdı. Bu dövrdə Naxçıvan və Culfa bölgələrində "Hümmət" adlı siyasi təşkilat formalaşmışdı. Bu təşkilatın əsas fəaliyyət planı tədqiq olunan dövrdə Naxçıvan bölgəsinin tərkibinə daxil olan kəndlərdə yaşayan mövsümi fəhlələr və sakinlər arasında maarifləndirici söhbətlər aparmaqdan ibarət olmuşdur.

Birinci fəslin ikinci yarımfəsli "**XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifin vəziyyəti"** adlanır**.** Bu yarımfəsildə tədqiq olunan dövrdə Naxçıvanda maarifin vəziyyəti öyrənilmişdir. Müəyyən olunmuşdur ki, bu dövrdə Azərbaycanın bütün bölgələrində geniş vüsət alan maarifçilik hərəkatı Naxçıvana da xeyli təsir etmişdir. XIX əsrin 70-cı illərində Naxçıvan qəzasında və onun bölgələrində maarifin səviyyəsini yüksəldən bir çox qanunlar və əsasnamələr qəbul edilmişdir. Həmin qanunlar Naxçıvanda maarifin inkişafına xeyli təsir etmişdir. Məktəblərdə şagirdlərin sayı artmış, məktəb kitabxanaları yaradılmış, rəsm, gimnastika, latın dili məşğələləri, kənd təsərrüfatı və sənət dərslərinin keçirilməsinə başlanılmışdır. Mədəni-maarif ocaqları təşkil edilmiş, məktəblərdə dünyəvi elmlər tədris olunmuş, pedoqoji hərakatda canlanma baş vermişdir. İrqindən, cinsindən və milli mənsubiyyətindən asılı olmayaraq hər kəsə öz doğma ana dilində təhsil almasına şərait yaradılmışdır. Ən əsası oğlanlarla yanaşı qızlar da təhsilə cəlb edilmişdir[4]. Bu dövrdə meydana gələrək inkişaf edən "üsuli-cədid" hərəkatı (cədid ərəb sözü olub yeni deməkdir) əlamətdar hadisələrdən olmuşdur. Naxçıvan bölgəsində ilk "üsuli-cədid" ("Əxtər" və "Məktəbi-tərbiyə") məktəblərinin açılmasında, cədidizm hərəkatının genişlənməsində, ana dili təlimi ideyasının meydana gəlməsində, müəllim kadrlarının hazırlanmasında, qadınların təhsilə cəlb olunmasında, ana dilində dərslik və dərs vəsaitlərinin hazırlanmasında naxçıvanlı ziyalıların böyük bir dəstəsinin mühüm xidmətləri olmuşdur. Maarifpərvər ziyalılar siyasi mübarizənin həlli yollunu pedaqoji hərəkatın həyata keçirilməsində görmüşlər. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan bölgəsində fəaliyyət göstərən bütün

[4] Abbasova S. Z. Naxçıvan Muxtar Respublikasında qadın hərəkatının inkişaf tarixi. Bakı: MBM, 2007, s. 104

məktəb və mədrəsələr Qafqazda tədris işlərinə dair 1873-cü ilin noyabr ayının 22-də qəbul edilmiş qanundan sonra daha çox inkişaf etmişdi[5]. Bu dövrdə Naxçıvan bölgəsində maarifin səviyyəsini yüksəldən qanunlardan biri də 1874-cü il noyabr ayının 20-də qəbul edilmişdi. Bu qanunda məktəb və mədrəsələr xalq məktəblər direksiyası inspektorunun nəzarətinə verilmişdi. Qeyd edək ki, 1880-cı ilin fevral ayında canişin Qafqaz Təhsil Dairəsinin poliçiteli K.P.Yanoveninin maarif sahəsində islahatlar keçirmək haqqında layihəsini təsdiq etdikdən sonra Naxçıvan bölgəsində ibtidai məktəblərin açılması sürətlənmişdir. İnqilab komitəsinin 25 avqust 1920-ci il tarixli dekretindən sonra bütün millətlərin nümayəndələrinə pulsuz, ibtidai icbari və ümumtəhsil hüquq bərabərliyi verilmişdir[6].

Birinci fəslin üçüncü yarımfəsli **"XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda mədəni inkişafın maarifə təsiri"** adlanır**.** Bu fəsildə tədqiq olunan dövrdə Naxçıvanda mədəni inkişafın maarifə göstərdiyi təsir tədqiq olunmuşdur. Müəyyən edilmişdir ki, Naxçıvan bölgələsində mədəniyyətin inkişafı Azərbaycanın digər bölgələri ilə müqayisədə heçdə geridə qalmamışdı. Əksinə olaraq Naxçıvan bölgəsində mədəniyyət xeyli dərəcədə inkişaf etmişdir. Belə ki, mədəniyyətin bir çox formaları məhz Naxçıvanda yaranmış, burada inkişaf etmiş və bütün Azərbaycana yayılmışdır. Ona görə ki, Naxçıvan bölgəsi daima mədəniyyətin qədim və zəngin ənənələrinə sahib olmuşdur. Akademik İsa Həbibbəyliyinin qeyd etdiyi kimi, Naxçıvan diyarının alim yetirmələri, demək olar ki, tarixin bütün mərhələlərində ilk növbədə Azərbaycan elminə, geniş mənada isə Şərq dünyasının elm xəzinəsinə dəyərli töhfələr vermişlər[7]. Bu dövrdə fəaliyyət göstərən "Əncüməni-şüarə" ədəbi məclisi XIX əsrdə Azərbaycan elminə, ədəbiyyatına, maarif və mədəniyyətinə Hacı Fəqir Ordubadi, Məhəmməd Tağı Sidqi, Mirzə Ağarəhim Qüdsi Vənəndi, Usta Zeynal Nəqqaş, Molla Məhəmməd Ordubadi, Əhməd ağa Şəmi, Möhtərəm Ordubadi, Nadim Naxçıvani, Molla Hüseyn Bikəs, Salik Ordubadi, Məşədi Həsən Dəbbağ və Mirzə Mehdi Naxçıvani kimi tanınmış yazıçılar, şairələr, müəllimlər və ədiblər bəxş etmişdir[8]. Qeyd edək ki, Cəlil Məmmədquluzadənin, Əliqulu Qəmküsarın, Məmməd Səid Ordubadinin,

---

[5] Qafqaz Təhsil Dairəsinin sərəncamları. Tiflis: 1892, № 12, s. 663

[6] Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F. 1, siy.1, iş 121, v. 7

[7] Həbibbəyli İ. Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, s.82-83

[8] Poetik məclislər. (Toplayanı və tərtib edəni N. Qarayev). Bakı: Yazıçı, 1987, s.50

Mirzə Cəlil Şürbinin, Eynəli bəy Sultanovun, Qurbanəli Şərifzadənin, Hüseyn Cavidin və Əli Səbrinin də elmi, pedaqji, publisistik fəaliyyəti XX əsrdə Naxçıvanda maarif və mədəniyyətin inkişafına böyük təsir göstərmişdir.

Birinci fəslin dördüncü yarımfəsli **"XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarif və mədəniyyətin təşəkkülündə Qori Müəllimlər Seminraiyası məzunlarının rolu"** adlanır**.** Dissertasiyanın bu yarımfəslində Qori Müəllimlər Seminariyası haqqında ümumi məlumat verilmiş, Naxçıvanda maarif və mədəniyyətin inkişafında xidmətləri olan seminariyanın görkəmli məzunlarının maarifçilik fəaliyyəti tədqiqata cəlb olunmuşdur. Müəyyən edilmişdir ki, Qori (Zaqafqaziya) Müəllimlər Seminariyasının açılması birdən-birə olmamışdır. Onun açılması çox mürəkkəb bir tarixi mərhələdən keçdikdən sonra reallaşmışdı. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə Qori Müəllimlər Seminariyasının tərkibində 1879-cu il sentyabr ayının 1-dən fəaliyyətə başlamış Azərbaycan şöbəsinin böyük rolu olmuşdur. Azərbaycan şöbəsinə ilk şagird qəbulu işi A.O.Çernyayevskiyə tapşırılmışdır. O, şöbəyə uşaq yığmaq məqsədilə 1879-cu ilin aprelində Naxçıvan əyalətinə ilk tarixi səfərini etmişdir[9]. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi 1918-ci ilin sentyabr ayında Qori şəhərindən Qazax şəhərinə köçürülmüşdür. Qeyd edək ki, Mirzə Əliməmməd Xəlilov, Mirzə Ələkbər Süleymanov, Ələsgər Şeyxhəsənov, Heydər Muradəsilov, Əbülqasım Sultanov, Ələkbər Məmmədxanov, Cəlil Məmmədquluzadə, Kərimbəy İsmayılov, Əli Səbri, Məmmədəli Sidqi Səfərov, Rəhim Kazımbəyov, Məmmədhüseyn Xəlilov, Xəlil Hacılarov, Ələkbər Abbasov, Ələkbər Rahib, İsmayıl Şəfibəyov və başqaları bu seminariyanı bitirmişlər.

Birinci fəslin beşinci yarımfəsli **"XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyası məzunlarının xidmətləri"** adlanır**.** Bu yarımfəsildə Naxçıvanda məktəb və pedaqoji fikrin inkişafında xidmətləri keçmiş seminariyanın naxçıvanlı məzunlarının maarifçilik fəaliyyəti öyrənilmişdir. İrəvan şəhərində 1881-ci il noyabr ayının 3-də əsası qoyulmuş bu tədris müəssəsi 1885-ci ildə ilk buraxılışını vermişdir. Həmin ildə seminariyanı bitirmiş məzunların 25 nəfəri azərbaycanlı, 2

---

[9] Nəbiyev B. Ə., Köçərli F. A. O. Çernyayevskinin Naxçıvana başlanan ilk tarixi səfəri. Bakı: Azərbaycan EA-nın nəşriyyatı, 1963, s. 15

nəfəri isə dağıstanlı idi[10]. Seminariyanın ən çox azərbaycanlı məzunu 1890-cı ildə olmuşdur. Həmin ildə bu seminariyanı 69 azərbaycanlı gənc bitirmişdi. Qeyd edək ki, 1902-ci ildə İrəvan Müəllimlər Seminariyasının tərkibində xəzinə hesabına 6 ibtidai məktəb də fəaliyyət göstərmişdir. Həmin məktəblərin 2-si şəhər, 4-ü isə kənd məktəbi olmuşdur. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının məzunlarından Məmmədqulubəy Kəngərlinin, Rəhim Xəlilovun, Axund Məmmədbağır Kazımzadənin, Məmməd Axundovun, Hacı Məmmədəli oğlunun, Məmmədbəy Qazıyevin, Tağı bəy Səfiyevin, Sadıq Xəlilovun, Mirzə Cəlil Şürbinin, Qasım bəy Camalbəyovun, Eynəli bəy Sultanovun və başqalarının adlarını qürur hissi ilə çəkə bilərik. Qeyd edək ki, seminariyanı müxtəlif vaxtlarda bitirən yuxarıda adlarını çəkdiyimiz məzunlar Azərbaycanın digər bölgələrində oluğu kimi, Naxçıvanda da təkcə tədrislə məşğul olmamış, həm də böyük ictimai-siyasi, elmi pedaqoji və metodiki işlər həyata keçirmiş, xalqın, millətin tərəqqisində və irəli getməsində mühüm işlər görmüşlər.

Dissertasiya işinin **ikinci fəsli "XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının inkişafı"** adlanır. Bu fəsil dörd yarımfəslə bölünür. **"XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda yeni məktəblərin yaranması uğrunda mübarizə"** adlı birinci yarımfəsil **"Ana dili məktəblərinin meyadana gəlməsi"** və **"Dünyəvi məktəblərin yaranması"** adlı iki bəndə bölünmüşdür.

**"Ana dili məktəblərinin meyadana gəlməsi"** adlı bənd də maarifpərvər ziyalı və görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin açdığı "Əxtər" ("Ulduz") və "Məktəbi-tərbiyə" ("Tərbiyə") ana dili məktəbləri öyrənilmişdir. O, "Əxtər" ("Ulduz") adlı ilk ana dili məktəbini Ordubad şəhərində 1892-ci ildə Hüseyn Sultan Kəngərlinin köməyi ilə açmışdır. M.T.Sidqinin bu məktəbi o vaxt nəinki Ordubadda, bütünlüklə Naxçıvan mühitində çox mühüm bir pedaqoji hadisə olmuşdur. Bu məktəb Ordubad şəhərində camaat arasında "Xeyriyə" məktəbi kimi tanınmış, onun uğurları haqqında çox danışılmışdı. Onun pedaqoji fəaliyyəti hər zaman Naxçıvan maarifpərvərlərinin diqqət mərkəzində olmuşdur. O, Naxçıvan ziyalılarının dəvəti ilə 1894-cü ildə Naxçıvan şəhərinə gəlmiş və burada da "Əxtər" ("Ulduz") məktəbinin formasında ana dili məktəbi açmışdır. Dörd sinifdən

---

[10] Məhərrəmov Z. H. İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi mədəni mühit. Bakı: Nurlan, 2010, s. 59

ibarət olan bu məktəbə Məhəmməd Tağı Sidqi "Məktəbi-tərbiyə" ("Tərbiyə") adı vermişdir. "Məktəbi-tərbiyə" ("Tərbiyə") məktəbində də "Əxlaq", "İlahiyyat elmi və şəriət qaydaları", "Xəttatlıq", "Hüsnxətt" və "Türk dili" kimi fənlər tədris olunmuş, məktəbin tədris planına Azərbaycan, rus, ərəb və fars dilləri, coğrafiya və hesab kimi dünyəvi fənlər daxil edilmişdir.

Birinci yarımfəsilin **"Dünyəvi məktəblərin yaranması"** adlı ikinci bəndində XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan bölgəsində fəaliyyət göstərmiş dünyəvi məktəblər öyrənilmişdir. Müəyyən olunmuşdur ki, Naxçıvan şəhərində ilk dünyəvi qəza məktəbi 1835-ci il nizamnaməsi əsasında Ehsan xan Naxçıvanskinin oğlanları İsmayıl xan və II Kalbalı xanın evində 1837-ci il mart ayının 15-də açılmışdır. Üç sinifli Naxçıvan qəza məktəbi ilk dəfə olaraq 20 nəfər uşaq qəbul etmiş, 1842-ci ildə 10 nəfər şagirdlə ilk buraxılışını vermişdir[11]. Naxçıvan bölgəsində dünyəvi məktəblərin açılması prosesi sonrakı dövrlərdə də davam etmiş, Naxçıvan şəhəri ilə yanaşı Ordubad şəhərində (1854-cü il 24 noyabr və 1900-cü il 01 sentyabr), Culfa şəhərində (1903-cü il 01 sentyabr), ), Qulubəy dizə (indiki Kərimbəyli, 1882-cu il 26 noyabr), Yengicə (1882-ci il 01 sentyabr), Cəhri (1885-ci il 11 sentyabr), Cəlilkənd (Baş Noraşen, 1885-ci il 20 sentyabr), Nehrəm (1885-ci il 11 dekabr), Şahtaxtı (1888-ci il 01 sentyabr), Şahbuz (1896-cı il 09 dekabr), Yaycı (1896-cı il 10 dekabr), Vənənd (1896-cı il 14 noyabr), Biləv (1896-cı il 25 noyabr), Aza (1901-ci il 22 noyabr), Nursu (1903-cü il 01 sentyabr), Şıxmahmud (1904-cü il 01 sentyabr), Qaraçuq (1905-ci il 22 dekabr), Aralıq (1905-ci il 02 oktyabr), Kültəpə (1906-cı il 01 sentyabr), Qahab (1906-cı il 02 sentyabr), Qarabağlar (1906-cı il 15 noyabr), Bist (1909-cu il 23 oktyabr) və başqa kəndlərində də dünyəvi məktəblər fəaliyyət göstərmişdir.

II fəslin **"Təlimin ana dilində aparılması uğrunda mübarizə"** adlanan ikinci yarımfəslində XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan bölgəsində təlimin ana dilində aparılması sahəsində görülən işlər öyrənilmişdir. Qeyd edək ki, bu dövrdə tərtib olunan dərsliklər əsasən azərbaycanlılar üçün nəzərdə tutulmuşdu. Ana dili dərsliklərinin əsas mahiyyəti doğma ana dilini inkişaf etdirmək və məktəblərdə təlimin ana dilində aparılması idi. Naxçıvanda təlimin ana dilində aparılması uğrunda Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Eynəli bəy Sultanov, Məhəmmədağa Şahtaxtlı, Məmməd Səid Ordubadi və Hüseyn Cavid kimi

---

[11] Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F. 5, siy.1, iş 1/1, v. 12

maarifpərvər ziyalılar daima mübarizə aparmışlar. Bu mütərəqqi ziyalılar üçün milli birlik, milli şüur və vahid milli əlifba məsələlərini həll etmək əsas prioritet məsələlər olmuşdur. Məhəmməd Tağı Sidqi "Nümmeyi əxlaq", "Əssərfül-ümmül-elm" və Nəhvi-Ərəb" (Ərəb dilinin sərfi-nəhfi) "Fənnviri Əfkar və təfhumi-insaniyyət", "Töhfeyi-Bənat, yainki qızlara hədiyə", "Hifzi-səhhə" və "Qiraəti-fənniyə" kimi dərsliklər də tərtib etmişdir. Cəlil Məmmədquluzadə Ümumittifaq Mərkəzi Yeni Əlifba Komitəsinin üzvü kimi də səmərəli fəaliyyət göstərmişdir. Onun redaktoru olduğu "Yeni yol" qəzeti XIX əsrin sonu XX əsrin əvvəllərində latın əlifbası ilə nəşrə başlayan ilk milli mətbuat orqanı olmuşdu. Bu qəzet 1922-ci il sentyabr ayının 22-də əsası qoyulmuş, 1928-ci ilədək Yeni Türk Əlifba Komitəsinin mətbuat orqanı kimi fəaliyyət göstərmişdir[12]. Eynəli bəy Sultanov da təlimin ana dilində aparılması uğrunda mübarizə aparmış, latın əlifbasına keçmək uğrunda ardıcıl səy göstərmiş, 1924-cü ildə Yeni Əlifba Komitəsi Tiflis şöbəsinin katibi vəzifəsini daşımışdı[13]. Ərəb əlifbasının islahı ilə əlaqədar Məhəmmədağa Şahtaxtlı 1879-1902-ci illər arasında çox səmərəli, fəaliyyət göstərmiş, 1906-1907-ci illərdə Tiflisdə üç hissədən ibarət «Ana dili» adlı dərsliklərini, 1879-cu ildə isə "Təkmilləşdirilmiş müsəlman əlifbası" kitabını çap etdirmişdi.

**"Müəllim kadrlarının hazırlığı problemi"** adlı üçüncü yarımfəsildə Naxçıvanda müəllim kadrlarının hazırlığının vəziyyəti araşdırılmışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvan bölgəsində də təhsilin əsas problemlərindən biri müəllim kadrlarının çatışmazlığı olmuşdur. Çünki, bu dövrdə Zaqafqaziyanın digər bölgələrində olduğu kimi Azərbaycanda da müəllim kadrları hazırlayan hər hansı bir tədris müəssisəsi olmamışdı. Buna görə də həmin dövrdə Naxçıvan məktəblərinə əsasən Rusiya Xalq Maarif Nazirliyi tərəfindən hazırlanmış müəllimlər və Tiflis gimnaziyasının məzunları göndərilirdi. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda müəllim kadrlarının hazırlığında ana dili məktəblərinin ("Əxtər" və "Məktəbi-tərbiyə"), dünyəvi məktəblərin (şəhər və kənd məktəbləri), Tiflis şəhərində 1886-cı ildə əsası qoyulmuş Alekssandrovski Müəllimlər Məktəbinin, 1881-ci ildə fəaliyyətə başlamış İrəvan Müəllimlər və İrəvan Oğlan Gimnaziyasının, 1884-cü ildə açılmış İrəvan Qız Gimnaziyasının və 1920-ci ildə fəaliyyətə

[12] Həbibbəyli İ. Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, s. 204-205
[13] Eynəli bəy Sultanov: Taleyi və sənəti. Bakı: Elm və təhsil, 2011. s. 12

başlamış İrəvan Pedaqoji Texnikumunun böyük rolu olmuşdur. Qeyd edək ki, Naxçıvanda 1920-ci ilə qədər cəmi 4 nəfər kişi: Cəfər Məmmədov, Mirzə Ələkbər Süleymanov, Mirzə Kazımbəyov, Həsən Qazıyev, 2 nəfər isə qadın müəllimi-Nazlı Nəcəfova (Tahirova) və Xədicə Səfərəliyeva olmuşdur. Xalq Maarif Komissarlığı müəllim kadralarının hazırlığı üçün təcili təxirəsalınmaz tədbirlər görmək məqsədilə bölgələrdə pedaqoji kursların açılması layihəsini də hazırlamış, 6 iyun 1920-ci il tarixli sərəncamı ilə kursların açılması rəsmi şəkildə təsdiq olunmuşdur. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin xalq maarifi fondunda saxlanılan sənədlərdən məlum olur ki, 1920-1921-ci tədris illərindən başlayaraq ümumtəhsil məktəbləri ilə yanaşı bir sıra kurslar, tibb, texniki peşə məktəbləri və pedaqoji texnikumlar da fəaliyyət göstərmişdir[14].

**"Qadın təhsilinin ümumi səciyyəsi və problemləri"** adlanan dördüncü yarımfəsildə Naxçıvanda qadın təhsilinin ümumi vəziyyəti haqqında məlumat verilmiş, problemləri təhlil edilmişdir. Qeyd edək ki, XIX əsrin ortalarından etibarən ölkədə əmələ gələn ictimai və iqtisadi canlanma mövcud hakimiyyətin qadın təhsili ilə maraqlanmağa vadar etmişdi. Rusiya Xalq Maarif Nazirliyi tərəfindən hazırlanmış qız məktəblərinin nizamnaməsi ilk dəfə olaraq 30 may 1858-ci il tarixində təsdiq olunmuşdu. Həmin nizamnaməyə əsasən qız məktəbləri I və II dərəcəli olmaqla iki dərəcəyə bölünmüş, təhsil müddətlərinə görə bir-birlərindən fərqlənmişlər. Amma çox təəssüf ki, bu nizamnamə yalnız iki il qüvvədə qala bilmiş, 1860-cı il 10 may və 1870-ci il 24 may tarixlərində yeni nizamnamələr qəbul edilmişdir. Sonuncu nizamnamədə (24 may 1870-ci il) gimnaziya 7 sinfə bölünmüş, hər sinifdə təhsil müddəti 7 il təyin olunmuşdu. Naxçıvan Muxatar Respublikası Dövlət Arxivində saxlanılan sənədlərə nəzər saldıqda görərik ki, Naxçıvan bölgəsində ilk qız məktəbinin 1870-ci ildə oktyabr ayının 7-də Əylis kəndində[15], Naxçıvan şəhərində isə ilk rus-Tatar (Azərbaycan-T.X) qız qız məktəbinin 1904-cü il oktyabr ayının 10-da açıldığı göstərilmişdir[16].Naxçıvanın görkəmli maarifçilərindən Məmmədqulu bəy Kəngərli Qafqazda ilk dəfə olaraq "Leyli" qız məktəbini açmış, özü də məktəbi maliyyələşdirmişdi. Lakin bu məktəbin də ömru uzun olmamış, 1901-ci il sentyabrın 15-də fəaliyyətə başladıqdan düz bir il sonra İrəvan şəhərinə köçürülmüş və 1905-ci il iyunun ayının 1-də

---

14 Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.309, siy.2, iş 270, v. 2
15 Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F. 5, siy.1, iş 1/1, v. 12
16 Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.392, siy.11, iş 205, v. 45

bağlanmışdı. Naxçıvan bölgəsində qadın təhsilinin inkişafında Azərbaycan İnqilab Komitəsinin 25 dekabr 1920-ci il tarixli dekreti ilə, 1921-ci il mart ayının 1-də Bakı şəhərində açılmış "Birinci Məktəbəqədər Qadın Tərbiyə İnistitutu"nun da rolu olmuşdu. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan bölgəsində qadın azadlığı və təhsili məsələlərini görkəmli mütəfəkkirlərimizdən Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Əbülqasım Sultanov, Leyla xanım Şahtaxtınski, Nazlı xanım Tahirova (Nəcəfova), Xədicə Səfərəliyeva (Cəfərova) və başqaları çox ciddi milli və ictimai məsələ kimi irəli sürmüşlər.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın əsas yekunları müddəalar şəklində aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da mövcud olan ictimai-siyasi və sosial-iqtisadi vəziyyət maarifin, mədəniyyətin və pedaqoji fikrin inkişafına müsbət təsir göstərmişdir. Bu dövrdə maarifpərvər ziyalıların nəzəri fikirləri və əməli fəaliyyətləri Naxçıvan bölgəsində yeni tədris ocaqlarının sayının artmasına, maarifçiliyin yüksək səviyyəyə çatmasına zəmin yaratmışdır.

2. XIX əsrin sonunda Azərbaycanda davam edən maarifçilik hərəkatının təsiri ilə Naxçıvanda məktəb, maarif, elm, təhsil və mədəniyyət işi, XX əsrin əvvəllərində ictimai-siyasi və mədəni həyatın aparıcı məsələsinə çevrilmişdir. İctimai-siyasi hərəkatın təsiri nəticəsində maarif müəssisələrinin, məktəblərin genişlənməsi, təhsilin ana dilində pulsuz və ümumi olması tələblərini irəli sürmək üçün şərait yaradaraq pedaqoji hərəkatın canlanmasına təsir göstərmişdir.

3. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının spesfik xüsusiyyətlərindən biri onun ictimai-milli və inqilabi vətəndaşlıq ideyaları ilə bağlı motivləri əks etdirməsi olmuşdur.

4. Naxçıvanın bütün bölgələrində ədəbi-bədii fikirdə, maarif və mədəniyyətin inkişafında yeni dövr başlanmış, milli oyanış canlanmışdır. Naxçıvan şəhəri ilə yanaşı bölgənin digər yerlərində də mədəni inkişaf maarifə təsir etmişdir.

5. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan maarifpərvərlərini daha çox düşündürən pedaqoji problemlər ana dili və dünyəvi məktəblərin yaradılması, məktəblərdə dini elmlərlə yanaşı, dünyəvi elmlərin tədris olunması, təlimin ana dilində aparılması, milli məfkurəyə malik müəllim kadrlarının hazırlanması, qızların təhsilə cəlb olunması və

digər məsələlər idi. Yeni məktəb uğrunda mübarizə Naxçıvan maarifpərvərlərinin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etmişdir.

6. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü və inkişafında Qori və İrəvan Müəllimlər Seminariyasında təhsil almış naxçıvanlı ziyalılar böyük xidmətlər göstərmişlər. Onlar təlimin ana dilində aparılması, ana dilli dərsliklərin hazırlanması, təhsilin məzmununun milliləşdirilməsi və yeni təlim metodlarının tətbiqi sahəsində mühüm işlər görmüşlər.

7. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının inkişafına daha çox təkan verən ana dili və dünyəvi məktəblər olmuşdur.

8. Naxçıvanda müəllim kadrlarının hazırlıq səviyyəsi öyrənilərkən bu dövrün (XIX əsrin sonu XX əsrin əvvəlləri) şəraiti, problemləri, kadr hazırlığının formaları müəyyən olunmuşdur. Müəyyə olunmuşdur ki, həmin dövrdə Naxçıvanda müəllimlər insanlara sadəcə əlifba öyrətməklə kifayətlənməmiş, onlara milli-mənəvi birilik, ictimai-siyası fəallıq, həmrəylik, hüquq, əxlaq, milli qurtuluş, azadlıq və mübarizə sahəsində də savad, bilik vermişlər.

9. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda oğlanlarla yanaşı qadın təhsilinin ümumi vəziyyəti və problemləri tədqiq olunarkən problem hərtərəfli təhlil edilmişdir. Müəyyən olunmuşdur ki, bu dövrdə qadınların cəhalət girdabından qurtarılmasında onların təhsilə cəlb olunması mühüm yer tutur. Oğlanlarla yanaşı qadınların təhsilə cəlb olunması onların maariflənməsinə, təlim və tərbiyəsinə stimul vermişdir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin nəşr olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda qadın təhsilinin təşəkkülü // Təhsil Problemlər İnistitutunun Elmi Əsərləri. Bakı: Mütərcim, 2012, № 2, s. 67-69

2. XIX əsrin sonunda Naxçıvanda milli təhsilin inkişafında Məhəmməd Tağı Sidqinin "üsulu-cədid" (yeni üsullu) məktəblərinin rolu // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2012, № 1 (44), s.180-184

3. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda ana dili və əlifbanın inkişafında Məhəmmədağa Şahtaxtlının rolu // Bakı Dövlət Universitetinin Xəbərləri. Bakı: BDU, 2012, № 4, s. 21-26

4. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda mədəniyyətin səviyyəsi və maarifçiliyin inkişafına təsiri / “Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial mədəni inkişaf” mövzusunda keçirilmiş beynəlxalq konfransın materialları. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı: Təknur, 2012, s. 139-143

5. XIX əsrin sonunda Naxçıvanda maarifin inkişafı / “Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri” mövzusunda keçirilmiş konfransın materialları. Təhsil Problemlər İnistitutu, Bakı: Mütərcim, 2012, s. 258-259

6. XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifın səviyyəsi // Akademik Bakış Dergisi. Kırgızistan, Celalabat: 2013, sayı 36, s. 1-7

7. XX əsrin əvvəllərində Naxçıvanda müəllim kadrlarının hazırlığı və maarifçiliyin inkişafında onların rolu // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2013, № 1 (52), s. 156-159

8. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda yeni məktəb uğrunda mübarizə / “Regional inkişaf və böyük mədəniyyət: mənşə, harmoniya və tipologiya məsələləri” mövzusunda keçirilmiş beynəlxalq konfransın materialları. Naxçıvan: Qeyrət, 2013, s. 96-97

9. XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının inkişafında İrəvan Müəllimlər Seminariyası məzunlarının rolu / “Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi” mövzusunda keçirilmiş konfransın materialları. Naxçıvan: Məktəb, 2013, s. 231-236

10. XIX yüzyılın sonu XX yüzyıl başlarında Nahçıvanda öğretmen kadrolarının hazırlığı // Bilim ve Kültür Dergisi. Türkiye, İstanbul: 2014, cilt 02, sayı 06, s. 128-134

11. XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə Qori Müəllimlər Seminariyası məzunlarının rolu // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2014, № 1 (57), s. 213-216

12. XIX əsrin sonu-XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının inkişafı / “Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları” mövzusunda keçirilmiş beynəlxalq konfransın materialları. Təhsil Problemlər İnistitutu. Bakı: Mütərcim, 2014, s. 205-206

13. XIX əsrin sonunda Naxçıvanda müəllim kadrlarının hazırlığı / “Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə

prosesində tətbiqi" mövzusunda keçirilmiş konfransın materialları. Naxçıvan: Məktəb, 2014, s. 184-187

14. XIX yüzyilin sonu, XX yüzyilin başlarında Nahçivanda egitimin teşekkülü ve gelişimi // Türkiye Sosyal Araştırmalar Dergisi, Türkiye, Ankara: 2015, sayı 3, s. 1-10

15. Nahçivanda eğitim (XIX yüzyilin sonu, XX yüzyilin başlarında) // Avrasya Çalışmaları Dergisi, Australia, Klosterneuburg, 2015, sayı 1, s. 41-47

16. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda ana dili və dünyəvi məktəblərin yaranması // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2015, № 1 (66), s. 255-262

17. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda mədəniyyətin inkişafında Məhəmməd Tağı Sidqinin ana dili məktəblərinin rolu / "Qafqaz tarixinin aktual məsələləri" mövzusunda keçirilmiş beynəlxalq konfransın materialları, II hissə. Gəncə: Gəncə Dövlət Universiteti, 2015, s. 336-341

18. XIX yüzyılın sonu XX yüzyılın başları Nahçıvanda öğretimin ana dilinde yapılması için mücadele / 12.Uluslararası Türk Dünyası Sosyal Bilimler Kongresi, Türkiye, İstanbul: 2014, I cilt, s. 133-137

19. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda mədəni inkişafın maarifə təsiri / "Təhsil kurikulumları: praktik tətbiqlər" mövzusunda keçirilmiş konfransın materialları. Naxçıvan: Məktəb, 2015, s. 25-27

20. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü / Gənc Tədqiqatçıların III Beynəlxalq elmi konfransı, II cild. Bakı: Qafqaz Universiteti, 2015, s. 1327-1328

21. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda dünyəvi məktəblərin yaranması və inkişafı / Azərbaycanşünaslığın aktual problemləri. VI Beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 2015, s. 515-517

22. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülünü şərtləndirən sosial-iqtisadi və ictimai-siyasi şərait / "Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusunda keçirilmiş konfransın materialları. Naxçıvan: Məktəb, 2015, s. 123-125

23. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda qadın təhsilinin ümumi səciyyəsi və problemləri // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2016, № 6 (74), s. 135-140

24. Формирование и развитие идеи просвещения в Нахчыване в конце XIX и в начале XX века // Педагогика и современность Научно-педагогический журнал, Москва: Нижегородскай, 2016, № 1 (21), с.104-108

25. Nahçivan'da kültürün ve eğitimin gelişiminde ana dili okullarının rolu (XIX yüzyilin sonu-XX yüzyılın başlarında) / 13.Uluslararası Türk Dünyası Sosyal Bilimler Kongresi. Türkiye, İstanbul: 2016, s.119-122

26. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda mədəni inkişaf // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2017, № 1 (82), s. 195-200

27. Naxçıvanda təlimin ana dilində aparılması ideyasının təbliğ olunmasında Məhəmməd Tağı Sidqinin rolu / "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda keçirilmiş konfransın materialları. Bakı: Bakı Slavyan Universiteti, 2017, s. 74-75

28. Образовательная и культурная ситуация в Нахчыване (В девятнадцатом веке и в начале двадцатого века) / XXIV Международной научной конференции «Актуальные научные исследования в современном мире». Переяслав: Хмелъницкий, 2017, Выпуск 4 (24), Частъ 1, с.109-112

29. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan maarifinin inkişafında Naxçıvan qəza və şəhər məktəblərinin rolu / "Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusunda keçirilmiş konfransın materialları. Naxçıvan: Məktəb, 2017, s. 115-118

30. XIX yüzyılın sonu XX yüzyılın başlarında Nahçivan'da mescid okulları ve medreseler // Avrasya Uluslararası Araştırmalar Dergisi. Türkiye, Ankara, 2017, cilt 05, sayı 11, s. 85-92

31. Nahçivan'da öğretimin ana dilinde yapılması uğrunda mücadelenin seçkin temsilcilerinden Mehmet Said Ordubadi / International Conference of Science. Türkiye, Ankara, 2017, s. 34-35

32. Образовательная и культурная ситуация. В Нахчыване в XIX-начале XX вв. / Материалы «Кавказоведение: история и современность» международной научной конференции. Ингушский: Магас, 2017, с. 545-551

**Талех Фарман оглы Халилов**

# ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ ПРОСВЕТИТЕЛЬСКИХ ИДЕЙ В НАХЧЫВАНЕ В КОНЦЕ XIX-В НАЧАЛЕ XX ВЕКОВ

## РЕЗЮМЕ

Диссертация посвящена актуальной теме, занимающей особое место и имеющей важное научное значение в истории азербайджанской педагогики. Исследовательская работа состоит из введения, двух глав, девяти подглав, заключения и списка использованной литературы. К диссертации добавлены сокращения. Во введении обоснована актуальность темы, указаны объект, предмет и задачи исследования, научная новизна, дана информация о теоритически-практической важности, методе и методологии, теории исследования, базе источников, хронологии, приведены основные пункты,допускаемые к защите,апробация и структура исследования.

В первой главе, под названием «Формирование просветительских идей в Нахчыване в конце XIX - в начале XX веков» исследованы социально-экономическая и общественно-политическая среды, состояние просвещения, влияние современного прогресса на просвещение, роль выпускников горийской семинарии и иреванской учительской губерний в формировании и развитии просвещения и культуры в Нахчыване. На основе архивных материалов были выявлены имена некоторых представителей нахчыванской интеллигенции, обучающихся в семинарии. Было выявлено, что социально-экономические и общественно-политических события, протекающие во всех областях Азербайджана и в Нахчыване, сильно сказались на развитии просвещения и культуры.

Вторая глава диссертации называется «Развитие просветительских идей в Нахчыване в конце XIX- в начале XX веков». В этой главе отражена борьба за создание новых школ, появление школ на родном языке,создание мировых школ, деятельность в области ведения обучения на родном языке, проблемы, связанные с подготовкой педагогических кадров, общая характеристика женского образования и проблемы. Выяснилось, что одной из основных проблем в сфере образования в Нахчыване, как и во всех областях Азербайджана, состав-

ляло отсутствие образовательных учреждений по подготовке педагогических кадров и нехватка учителей. Здесь велика заслуга просветительскоой интеллигенции. Так как они сделали очень много для того, чтобы привлечь к образованию наряду с мальчиками и женщин.

В заключении диссертации представлены обобщенные итоги, полученные в ходе исследования проблемы. Выяснилось, что в Нахчыване, под воздействием просветительского движения в Азербайджане конца XIX века, школа, просвещение, наука и образование, культура в начале XX века превратились в ведущую задачу общественно-политической и культурной жизни. Расширение просветительских предприятий и школ создало условия для выдвижения требований по проведению занятий на родном языке бесплатно и обощенно и дало толчок оживлению педагогического движения.

В результате деятельности просветительской интеллигенции в таких областях, как создание родных и мировых школ, преподавание в школах наряду с религиозными науками,мировых наук, проведение занятий на родном языке, подготовка учителей с национальным мышлением, привлечение девочек к образованию и прочее просветительские идеи в конце XIX-в начале XX веков стали широко развиваться.

**Taleh Farman oglu Khalilov**

# FORMATİON AND DEVELOPMENT OF ENLİGHTENMENT İDEAS İN NAKHCHİVAN İN LATE XIX CENTURY AND İN EARLY XX CENTURY

## SUMMARY

Dissertation has been dedicated to actual problem which takes a spciic place and is of great significance in pedagogic history of Azerjan. Research work consists of introduction, two chapters, nine semi-chapters, conclusion and references used. Abbreviations have also been added to research work.

In introduction the actuality of the topic has been based, the object, the item, aim and duties of the research have been shown, scientific novety of the rsearch work, information has been given about theoreticalpractical significance, methods and methodology, the hypothesis of the research work, source-study basis, chronological frame, tenets put in defence, the approbation and structure of the research work.

In the first chapter of the dissertation work titled “The appearance of the ideas of enlightenment in Nakhchivan in late XIX cc and in early XX cc” socio-political and socio-economic environment, the situation of the enlightening, the impact of cultural development on enlightenment, grdates’ services of Gory and Irevan Teachers’ Seminary in the develoment of establishment of enlightenment and culture in Nakhchivan have been studied. The number of Nakhchivan-born graduates in these seminaries, the work they did in the development of enlightenment and culture in Nkhchivan, enlightening activities have been investigated. A group of ecaed people’s names studied in these seminaries have been included in scientific circulation on the basis of archive materials. It has been dtemined that in late XIX cc and in early XX cc, as in all parts of Azerjan, the chanes occurred in the socio-economic and socio-political life in Nakhchivan had a great affect to the development of enlightenment and culture.

The second chapter of dissertation work is called “The develoment of enlightenment ideas in Nakhchivan in late XIX and early XX cc” In this chapter the struggle for the establishment of new schools, appearance of schools with mother tongue, the establishment of secularized schools, the work done in the field of teaching in native language, the problems in the field of teacher cadre preparation, general characters and problems of fmale teaching have been studied. It has been determined that as in other regions

of Azerbaijan in late XIX and early XX cc, one of the main prolems in Nakchivan was the absence of any educational institution prparing the teacher cadre, the lack of teacher cadre. Educated men had great svices in this field. They did important work by involving the woen in education tgether with men in a massive scale.

In the “Conclusion” part of the dissertation work achieved results with generalizations were introduced at the time of learning the problem. It was determined that with the affect of enlightenment movement started in Azerbaijan in late in late XIX century, school, education, teaching and cture work became the leading matter of socio-political and cultural life of the beginning of XX century. At the result of the affect of socio-political movement, enlargement of elightement institutions and schools, offering the facilities to claim the education to be free and comprehensive in moter tongue affected the animation of pedagogical movement. Enlightening idas emerged and developed in Nakhchivan in late XIX and early XX cc. At the result of the work done by educated men in the field of establishment the secularized education with mother tongue, teaching secularized sciences together with religious sciences at schools, having the teaching process in native language, preparing teacher cadres having national ideology, the ivolvement the girls in teaching and other problems.

Çapa imzalanmışdır: 26.10.2017
Formatı: 60x90, 16/1, həcmi: 1.9 ç/v.
Tiraj: 100, sifariş № 82

NDU-nun "Qeyrət" nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ТАЛЕХ ФАРМАН оглы ХАЛИЛОВ**

# ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ ПРОСВЕТИТЕЛЬСКИХ ИДЕЙ В НАХЧЫВАНЕ В КОНЦЕ XIX-В НАЧАЛЕ XX ВЕКОВ

5804.01-Общая педагогика, история педагогики и образования

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание учёной степени доктора
философии по педагогике

**Нахчыван -2017**